**Müşfiq Bayramzadə**

# IFRS GÖZLÜYÜ
# I CİLD

Bakı – 2024

qanun nəşriyyatı

Müşfiq.Bayramzadə. IFRS Gözlüyü I cild
Bakı, Qanun Nəşriyyatı, 2024,  352 səh.

Ölçü: 165x235 mm
Qapaq: qalın
Çapa imzalandı: 12.03.2024

Korrektor: Əyyar Tahir
Mətn dizaynı: Aytac Abdul
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-915-9

© Müşfiq.Bayramzadə, 2024
© Qanun nəşriyyatı, 2024

# RƏY!

Ümumilikdə 4 cilddən ibarət olacaq **FinTalks-un "IFRS Gözlüyü"** kitabının ən önəmli üstünlüklərindən biri və bəlkə də birincisi yazılma üslubunun sadəliyidir. Sadə şəkildə yazı üslubu oxucuların kitabı daha həvəslə və daha sürətlə oxuya bilməyinizə stimul yaradacaq. Adətən oxuculardan hər hansı kitabı niyə oxumağa başlayıb, daha sonra dayandırdığını soruşanda demək olar ki, bir cavab alırıq: "Kitabın yazı üslubu və süjet xətti anlaşılan deyil və çox mürəkkəbdir. Buna görə də kitabı oxumaq maraqsız gəlir". **"IFRS Gözlüyü"** kitabının yazı üslubunda bütün bu məsələlər çox həssas şəkildə diqqətə alınmışdır.

Müəlliflə 5 ildən çox şəxsi və professional tanışlığım bu kitabın necə bir keyfiyyətlə ərsəyə gələcəyini əvvəlcədən təxmin etməyimə imkan yaradırdı. Müəlliflə müxtəlif beynəlxalq və yerli audit layihələrində birlikdə çalışarkən hər zaman real nümunələri özündə qeyd edirdi. Həmin vaxt sual verirdim ki, bunları niyə xüsusi qeyd olaraq hazırlayırsan? O zaman mənə çox gözəl bir cavab vermişdi: "Bu gün öyrəndiyim praktiki bilikləri gələcəkdə yazı şəklində bu sahənin mütəxəssislərinə ötürə bilmək üçün". Müşfiq Bayramzadənin çox sevdiyi bir ifadə var. O deyir ki, öyrənməyin ən gözəl yolu öyrətməkdir. Bu kitabda müəllif oxucuların mövzuları daha asan şəkildə başa düşə bilməsi üçün geniş araşdırmalar etmişdir. Bu araşdırmaların keyfiyyəti kitabın hər cümləsində hiss olunur.

Kitabda verilmiş bütün misallar, izahlar və ən əsası milli mühasibat uçotu ilə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının sintezi oxucular üçün əvəzsiz biliklər qazandıracaq. Kitabda bütün terminlərin həm azərbaycanca, həm də ingiliscə qeyd edilməsi də çox təqdirəlayiq addımdır.

Toplam olaraq 4 cilddən ibarət olacaq kitabın bütün cildlərini oxuduğunuz təqdirdə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının hamısını ən sadə izahlarla və praktiki olaraq başa düşə biləcəksiniz.

**Hörmətlə,**
**Ziya Nəsirov, FCCA**
**Baker Tilly, Audit Partnyor.**

# ÖN SÖZ

Dəyərli FinTalks oxucusu,

Maliyyə dünyasında sizi uğura aparacaq yolda addım-addım izləmək üçün 2023-cü ilin aprel ayında **FinTalks platformasını** yaratdıq. Bu platformanı yaradan zaman əsas ideyamız platforma istifadəçilərinin Müasir Maliyyə və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS) ilə əlaqəli iş dünyasında ehtiyaclarının olduğu bütün bilgiləri burada tapa bilmələri idi. Məsələnin ən önəmli tərəfi isə bu platformanın 3 əsas prinsip üzərində işləməli olması idi:

- **Maksimum məzmun genişliyi** – burada olan video dərslər, kitablar və məqalələr ən incə detalına qədər izah edilməli idi. Bu o deməkdir ki, biz dərslərimizdə hər hansı bir mövzunun üzərindən ötəri keçməməli idik.
- **Maksimum sadəlik** – bu platformada olan bütün video dərslərimizdə və kitablarımızda ən çətin terminlər də ən sadə şəkildə izah edilməli və akademik fikirlərdən qaçılmalı idi.
- **Beynəlxalq brend** – bu platforma təkcə Azərbaycanda deyil, Amerika və Avropa bazarında da fəaliyyət göstərməli idi. Buna görə də platformada dərslər həm Azərbaycan dilində, həm də ingilis dilində mövcud olacaq.

FinTalks platformasını yaradan zaman strateji vizyonumuzu əvvəlcədən müəyyən etdik. Strateji vizyonumuzu belə açıqlayırıq: "FinTalks platformasında yerləşdiriləcək bütün video dərslər və kitablar sadəcə Müşfiq Bayramzadəyə məxsus olacaq. Bu platforma bir şəxsi brend olduğuna görə başqa hər hansısa bir müəllifin video dərsləri və yaxud kitabları burada yerləşdirilməyəcək. FinTalks platforması ixtisaslaşmış bir platforma olduğundan buradakı bütün video dərslər və kitablar yalnız IFRS və Müasir Maliyyə ilə bağlı olacaq".

Hal-hazırda oxumağa başladığınız kitab FinTalks məhsulu olan **4 cildlik "IFRS Gözlüyü"** kitabının **I cildidir.** Bu kitab adından da göründüyü kimi, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ilə əlaqəli bir kitabdır və həcminin böyüklüyünə görə ölkəmizdə bu mövzuda yazılmış ən iri həcmli ilk kitabdır. Kitabın I cildindən IV cildinə doğru getdikcə IFRS-lə bağlı daha mürəkkəb mövzular izah edilir. Buna görə

də kitabın bütün cildlərini tamamladığınız zaman IFRS ilə bağlı ən incə məqamları öyrənmiş olacaqsınız. Əlavə olaraq bu kitabın daha 3 böyük üstünlüyü mövcuddur:

1. "IFRS Gözlüyü" kitabını yazan zaman kitabın hətta bu sahənin mütəxəssisi olmayanlar tərəfindən də asanlıqla başa düşülməsi ən önəmli diqqətə aldığımız məsələlərdən biri idi. Buna görə də maksimum şəkildə akademik düşüncələrdən qaçılmış və ən sadə izahlarla kitab sizlərə təqdim edilmişdir.

2. Bu kitabda IFRS ilə bərabər Maliyyə Nazirliyinin təsdiq etdiyi milli hesablar planının bütün üç rəqəmli hesablarını və bu hesablar əsasında hazırlanmış müxabirləşmələri öyrənəcəksiniz. Kitabda olan bütün müxabirləşmələr həm üçrəqəmli hesablar, həm də IFRS hesabları əsasında hazırlanmışdır.

3. Kitabımızda önəmli özəlliklərdən biri də dünyanın tanınmış şirkətləri olan Apple, HP, Exxon Mobil, Facebook, Amazon, Netflix, Whatsapp, Colgate, Spartan, Dreamwork və s.-in maliyyə hesabatlarının təhlil edilməsidir.

Maliyyə sahəsində Müşfiq Bayramzadənin həm ölkə xaricində, həm də ölkə daxilində istehsalat, tikinti, bank, konsaltinq xidməti və FMCG – Fast Moving Consumer Goods (alıcılıq qabiliyyəti yüksək olan mallar) sahəsində çalışaraq əldə etdiyi biliklər oxuyucularda bu kitabın maliyyə sahəsində zəngin iş təcrübəsi olan bir müəllif tərəfindən ərsəyə gəlməsi əminliyini yaradacaq. Böyük sevinc hissi ilə qeyd etmək istərdik ki, Müşfiq Bayramzadə 2023-cü ilin dekabr ayında Financial Times jurnalı tərəfindən dünyanın 1 nömrəli biznes universiteti hesab edilən **Fransanın Paris HEC** universitetinə qəbul olmuşdur. Bu universitetdə indiyə qədər sadəcə 7 azərbaycanlı həmyerlimiz təhsil almışdır. Müşfiq Bayramzadə 2024-cü ilin sentyabr ayından etibarən **"Executive MBA – Specialization in Advanced Expert in Challanges of Finance"** sahəsi üzrə Fransa, Çin və Amerikada 24 ay ərzində əyani təhsil alacaq.

Kitabın ərsəyə gəlməsində mənəvi dəstəyi olan hər kəsə dərin təşəkkürümüzü bildiririk. İnanırıq ki, ümumilikdə 4 cilddən ibarət olan kitab oxucuların bu sahəyə baxış bucağını yenidən formalaşdıra biləcək. Kitabın yazılma prinsipi sadəlik üzərində qurulmuşdur. Hesab edirik ki, bir şəxs hər hansısa bir mövzunu qarşısındakı şəxsə sadə şəkildə izah edə bilmirsə, deməli, həmin mövzunu özü də tam başa düşməyib.

Sadə izahlarla dolu IFRS və maliyyə dünyasına xoş gəlmisiniz!

**Hörmətlə,**
**FinTalks – Your Finance Outlook!**

# Mündəricat

**Mövzu 1. Konseptual Çərçivə Sənədinin mahiyyəti və onun 8 əsas başlığı** **11-120**

- Kitabın yazı üslubunun əsasını nə təşkil edir?
- Kitabı oxumağa başlayanlar üçün yol xəritəsi
- Maliyyə hesabatlarına ümumi baxış
- MUBSŞ-un rolu, funksiyaları və MUBSŞ-a tabe olan təşkilatlar
- IFRIC təşkilatının hazırladığı IFRS şərhləri
- Mühasibat uçotunun beynəlxalq standartları
- Maliyyə hesabatlarının beynəlxalq standartları
- Konseptual çərçivə sənədinə ümumi baxış
- IFRS və US GAAP-a ümumi baxış
- IFRS və US GAAP arasında əsas fərqlər
- Konseptual çərçivə sənədinin 8 başlığı
- Maliyyə hesabatlarının hazırlanmasının məqsədi
- Maliyyə informasiyasının keyfiyyət xarakteristikaları
- İnformasiyanın fundamental keyfiyyət xarakteristikaları
- Əhəmiyyətli informasiyanın rəqəmsal əsaslandırılması
- İnformasiyanın doğru təqdimatı
- Genişləndirilmiş keyfiyyət xarakteristikaları
- Maliyyə hesabatları və hesabat verən müəssisə
- Maliyyə hesabatlarının elementləri
- Aktivlər nədir?
- Qısamüddətli və uzunmüddətli aktivləri necə fərqləndirək?
- Normal əməliyyat tsikli deyəndə nə nəzərdə tutulur?
- Aktivləri niyə qısamüddətli və uzunmüddətli olaraq bölürük?
- Maddi və qeyri-maddi aktivlər, monetar və qeyri-monetar aktivlər nədir?
- Öhdəliklər nədir?
- Qısamüddətli və uzunmüddətli öhdəliklər, monetar və qeyri-monetar öhdəliklər
- Debt Service Coverage Ratio əmsalının hesablanması
- Kapital nədir?
- Gəlir nədir?
- Xərc nədir?
- Dividend nədir?
- Uçota almaq və uçotdan çıxarmaq nədir?
- Maliyyə hesabatlarının elementlərinin dəyərinin müəyyən edilməsi

- Maliyyə hesabatların təqdim edilməsi və açıqlamalar
- Kapital və kapitalın saxlanması konsepsiyasının mahiyyəti
- Maliyyə kapitalının saxlanması nə deməkdir?
- Fiziki kapitalın saxlanması nə deməkdir?

**Mövzu 2. Mühasibatlıq əməliyyatlarının aparılmasının ardıcıllığı** **121-128**
- Mövzu haqqında giriş
- Uçot əməliyyatlarının aparılmasının ardıcıllığı necədir?
- Əməliyyatların sənəd əsasının olması və faktiki baş verməsi
- Mahiyyətin formadan üstünlüyü prinsipi nədir?
- Sənədsiz əməliyyatların uçotunu aparmaq olar?

**Mövzu 3. Debit və kreditin mahiyyəti və müxabirləşmələrin izahı** **129-164**
- Mövzuya qısa giriş
- Maliyyə-təsərrüfat əməliyyatları debit və kreditdə necə əks etdirilir?
- Debit və kreditin əməliyyat jurnalında əks etdirilməsi
- Əməliyyat jurnalının hazırlanması
- Baş kitabın hazırlanması
- Sınaq balansının (dövriyyə qalıq cədvəlinin) hazırlanması
- Mənfəət və ya zərər hesabatının hazırlanması
- İl sonunda gəlir və xərc maddələrinin sıfırlanması əməliyyatları
- Balans hesabatının hazırlanması
- Kapitalda dəyişiklik haqqında hesabatının hazırlanması
- Pul vəsaitinin hərəkəti haqqında hesabatı

**Mövzu 4. Amortizasiyanın 4 növü və onların uçota alınma qaydası** **165-194**
- Amortizasiyanın mahiyyəti və onun xərc kimi tanınması
- Amortizasiyanın 4 əsas növü hansılardır?
- Amortizasiyanın düz xətt metodu nədir və nə zaman istifadə edilir?
- Amortizasiyanın müxabirləşməsi və maliyyə hesabatlarında əks etdirilməsi
- Excel-də amortizasiyanın düz xətt metodunun formulu nədir və necə istifadə edilir?
- Amortizasiyanın Mənfəət/Zərər və Balans hesabatına təsirləri
- Amortizasiyanın azalan qalıq metodu nədir və nə zaman istifadə edilir?
- Excel-də amortizasiyanın azalan qalıq metodunun formulu nədir və necə istifadə edilir?
- Amortizasiyanın düz xətt və azalan qalıq metodları arasındakı fundamental fərqlər
- Amortizasiyaya yanaşmada Vergi Məcəlləsi ilə IFRS arasındakı fundamental fərqlər
- Amortizasiyanın istehsal vahidi metodu nədir və nə zaman istifadə olunur?

- Amortizasiyanın illərin rəqəm cəmi metodu nədir və nə zaman tətbiq olunur?

**Mövzu 5. Əməliyyat jurnalında bəzi praktiki müxabirləşmələr** **195-202**

- Praktiki nümunə əsasında bəzi müxabirləşmələrin izahı

**Mövzu 6. Maliyyə vəziyyəti haqqında hesabatın strukturu və elementləri** **203-242**

- Maliyyə vəziyyəti haqqında hesabatın strukturunun nümunə ilə izahı
- Ticari debitor borcun mahiyyəti nədir və necə uçota alınır?
- Mənfəət vergisi öhdəliyi və xərcinin mahiyyəti nədir və necə uçota alınır?
- Uzunmüddətli və qısamüddətli bank borcunun mahiyyəti nədir və necə uçota alınır?
- Şərti aktiv, şərti öhdəlik və qiymətləndirilmiş öhdəliyin mahiyyəti nədir və necə uçota alınır?
- Torpaq, tikili və avadanlığın mahiyyəti nədir və necə uçota alınır?
- Mal-material ehtiyatı nədir və necə uçota alınır?
- Maliyyə lizinqinin uzunmüddətli və qısamüddətli hissəsi nədir və necə uçota alınır?
- Pul vəsaiti və onun ekvivalentləri nədir və necə uçota alınır?
- Adi və imtiyazlı səhmlər nədir və necə uçota alınır?
- Qudvil nədir və hesabatda necə göstəriləcək?
- Təxirə salınmış vergi aktivinin və öhdəliyinin mahiyyəti nədir?
- Qazanılmamış gəlir nədir və necə uçota alınır?
- Ödənilmiş avanslar və gələcək hesabat dövrünün xərcləri
- Ticari kredit borcun və hesablanmış öhdəliyin mahiyyəti və uçotu
- Bölüşdürülməmiş mənfəət nədir və necə uçota alınır?
- Qeyri-maddi aktivlərin mahiyyəti və uçotu

**Mövzu 7. Geniş həcmli müxabirləşmələr və maliyyə hesabatlarının hazırlanması** **243-278**

- Mövzuya qısa giriş və praktiki misal
- Panda şirkətinin 2022-ci il əməliyyat jurnalının tərtib edilməsi
- Panda şirkətinin 2022-ci il baş kitabının tərtib edilməsi
- Panda şirkətinin 2022-ci il sınaq balansının tərtib edilməsi
- Panda şirkətinin 2022-ci il Mənfəət/Zərər hesabatının tərtib edilməsi
- Panda şirkətinin 2022-ci il gəlir və xərc hesablarının sıfırlanması və yenilənmiş sınaq balansının hazırlanması
- Panda şirkətinin 2022-ci il Balans hesabatının tərtib edilməsi
- Panda şirkətinin 2022-ci il Kapitalda dəyişiklik haqqında hesabatının tərtib edilməsi
- Panda şirkətinin 2023-cü il ərzində icra etdiyi əməliyyatlar
- Panda şirkətinin 2023-cü il üzrə əməliyyat jurnalının tərtib edilməsi
- Bank hesabının baş kitabının hazırlanması

- Panda şirkətinin 2023-cü il baş kitabının tərtib edilməsi
- Panda şirkətinin 2023-cü il sınaq balansının tərtib edilməsi
- Panda şirkətinin 2023-cü il Mənfəət/Zərər hesabatının tərtib edilməsi
- Panda şirkətinin 2023-cü il gəlir və xərc hesablarının sıfırlanması və yenilənmiş sınaq balansının tərtib edilməsi
- Panda şirkətinin 2023-cü il Balans hesabatının tərtib edilməsi
- Panda şirkətinin 2023-cü il Kapitalda dəyişiklik haqqında hesabatının tərtib edilməsi

**Mövzu 8. Pul vəsaitinin hərəkəti haqqında hesabatın geniş izahı** **279-336**
- Pul vəsaitinin hərəkəti haqqında hesabata qısa giriş
- Pul vəsaitinin hərəkəti hesabatının praktiki tərtib edilməsi: 1-ci mərhələ çətinlik dərəcəsi
- Əməliyyat jurnalında müxabirləşmələrin edilməsi
- Baş kitabının tərtib edilməsi
- Sınaq balansının tərtib edilməsi
- Mənfəət/Zərər hesabatının tərtib edilməsi
- İl sonunda gəlir və xərclərinin sıfırlanması və sınaq balansının yenidən tərtib edilməsi
- Balans hesabatının tərtib edilməsi
- Pul vəsaitinin hərəkəti haqqında hesabatın tərtib edilməsi
- Pul vəsaitinin hərəkəti haqqında hesabatın birbaşa metodla tərtib edilməsi
- Əməliyyat, investisiya və maliyyə fəaliyyətinin mahiyyəti
- Pul vəsaitinin hərəkəti haqqında hesabatın dolayı metodla tərtib edilməsi
- Pul vəsaitinin hərəkəti haqqında hesabatın dolayı metodla tərtib edilməsinin davamı
- Pul vəsaitinin hərəkətində hesabatın praktiki tərtib edilməsi: 2-ci mərhələ çətinlik dərəcəsi
- Əməliyyat jurnalının tərtib edilməsi
- Baş kitabın tərtib edilməsi
- Sınaq balansının tərtib edilməsi
- Mənfəət/Zərər hesabatının tərtib edilməsi
- İl sonunda gəlir və xərc hesablarının sıfırlanması
- Balans hesabatının tərtib edilməsi
- Pul vəsaitinin hərəkəti hesabatının kustar üsulla hazırlanması
- Pul vəsaitinin hərəkəti hesabatının birbaşa metodla tərtib edilməsi
- Pul vəsaitinin hərəkəti hesabatının dolayı metodla hazırlaması

**Mövzu 9. Maliyyə hesabatlarına analitiki baxışı necə formalaşdırmalıyıq?** **337-350**
- Mövzuya qısa giriş
- Hertz şirkətinin biznes modeli haqqında ümumi məlumat
- Hertz şirkətinin maliyyə hesabatı ilə bağlı qalmaqal yaradan keysi

- Hertz şirkəti maliyyə hesabatlarında maxinasiya olmadığını necə sübuta yetirdi?
- Hertz şirkətinin əsas vəsaitlərinin faydalı istifadə müddəti niyə artmışdır?
- Hertz şirkətinin əsas vəsaitlərinin ləğvetmə dəyəri niyə artdı?
- Hertz şirkətinin əsas vəsaitlərinin satışı zamanı yaranan gəlir və ya zərər bizə nə deyir?

# MÖVZU 1

## Konseptual Çərçivə Sənədinin mahiyyəti və onun 8 əsas başlığı

## Kitabın yazı üslubunun əsasını nə təşkil edir?

Kitabın ön sözündə də qeyd etdiyimiz kimi bu kitab Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ilə əlaqəli bir kitabdır. Kitabın I cildindən IV cildinə doğru getdikcə mövzular asandan başlayaraq mürəkkəb mövzuların izahına doğru istiqamət alacaq. Bunu nəzərə alaraq mövzulara keçməzdən öncə gəlin sizin üçün əvvəlcə bir yol xəritəsi hazırlayaq. Bu yol xəritəsi olmadan haradan başlayıb, harada bitirəcəyimizi tam olaraq anlamaq çətin olacaq.

Yol xəritəsinə əlavə olaraq oxuculardan bir istəyimiz də olacaq ki, hər oxuduqlarını mütləq həqiqət kimi qəbul etməsinlər. Hər zaman **niyə?** sualını verməyə özünüzü alışdırın. Kitabı oxuyarkən **niyə?** sualını özünüzə verdiyiniz anda daha çox bilik qazanacaqsınız və mövzunun mahiyyətini daha yaxşı başa düşəcəksiniz. Buna görə də əzbərçilikdən uzaq olun və hər zaman kritik olaraq düşünməyə çalışın.

Bu giriş hissəni də verdikdən sonra sizlər üçün bir yol xəritəsi hazırlayaq. Bu yol xəritəsində kitabımızın haradan başlayıb harada bitəcəyini və ən əsası da nələrin əhatə olunduğunu görəcəksiniz. Elə isə xahiş olunur ki, öz "gözlüyünüzü" çıxarın və **FinTalks-un "IFRS Gözlüyünü"** taxın. Belə olan halda kitabın sonunda əminik ki, IFRS-ə baxış bucağınız 180 dərəcə dəyişəcək.

## Kitabı oxumağa başlayanlar üçün yol xəritəsi

Bu kitabı oxumağa başladığınız anda dayanıb özünüzə sual verməyiniz lazımdır. Əgər bu kitab bir nəqliyyat vasitəsi olsaydı, sizi hansı məkandan götürüb hansı son nöqtəyə çatdırardı? Yol xəritəsi də deyərkən elə bu suala cavabı nəzərdə tuturuq. Buna görə də kitabın əvvəlində sizin marşrutun haradan başlayıb harada bitəcəyini addım-addım yazmaq istərdik.

**Addım 1:** Siz IFRS öyrənməyə başladığınız zaman son çatmalı olduğunuz nöqtəni öncədən mütləq bilməlisiniz. Bu son nöqtə maliyyə hesabatlarının beynəlxalq standartları əsasında 4 maliyyə hesabatını və izahlı qeydləri hazırlamaqdan ibarətdir. İngilis dilində Maliyyə Hesabatlarının Beynəlxalq Standartları **International Financial Reporting Standarts**, izahlı qeydlər isə **Explanatory Notes** adlanır. Maliyyə hesabatları və izahlı qeydlərin nə demək olduğunu əyani olaraq görməyiniz üçün tövsiyə edirik ki, internetdə şirkətlərdən bir neçəsinin beynəlxalq standartlar əsasında audit olunmuş maliyyə hesabatlarına baxasınız. Nümunə olaraq müəllifin öz çalışdığı şirkətin hesabatının linkini bura əlavə edirik (http://azvirt.com/az/financial_reports).

**Addım 2:** Son çatacağınız nöqtənin nə olduğunu bildikdən sonra həmin son nöqtənin başlanğıc nöqtəsinin də nə olduğunu bilməyiniz lazımdır. Siz bilməlisiniz ki, IFRS öyrənməyə haradan başlamaq lazımdır. Bu başlanğıc nöqtə Maliyyə Hesabatlarının Hazırlanmasının Konseptual Çərçivə Sənədinin öyrənilməsi ilə başlanılır. Konseptual Çərçivə Sənədi maliyyə hesabatlarının hazırlanmasının təməl nöqtəsidir. Bununla bağlı izahlara kitabın növbəti hissələrində daha ətraflı şəkildə toxunacağıq. İngilis dilində Maliyyə Hesabatlarının Hazırlanmasının Konseptual Çərçivə Sənədi **Conceptual Framework for Financial Reporting** adlandırılır.

**Addım 3:** Konseptual Çərçivə Sənədinin mahiyyətini öyrəndikdən sonra növbəti olaraq IFRS-ləri öyrənməyiniz lazımdır. Hal-hazırda toplam qüvvədə olan 25 IAS və 16 IFRS standartı mövcuddur və onların tam siyahısını aşağıda qeyd edəcəyik. Bu IFRS-ləri bilməyiniz ona görə vacibdir ki, həmin standartlar sizə maliyyə hesabatlarının necə hazırlanmalı olduğunu göstərəcək. Məsələn, "MUBS 1 Maliyyə Hesabatlarının Təqdimatı (IAS 1 Presentation of Financial Statements)" standartı sizə maliyyə hesabatlarını necə hazırlamağı və təqdim etməyi göstərir, "MUBS 2 Mal-material Ehtiyatı (IAS 2 Inventory)" standartı mal-material ehtiyatlarının necə uçota alınmasını, uçotdan silinməsini və dəyərləndirilməsini izah edir və s.

**Addım 4:** Daha sonrakı addımda siz maliyyə hesabatlarının növlərini və maliyyə hesabatlarının elementlərini öyrənməlisiniz. Maliyyə hesabatlarının elementləri dediyimiz zaman biz aktiv (asset), öhdəlik (liability), kapital (equity), gəlir (income), xərc (expense) və dividend (dividend) elementlərini nəzərdə tuturuq. Maliyyə hesabatları məhz bu elementlər əsasında hazırlanır.

**Addım 5:** Yuxarıdakı 4 addım prosesin nəzəri tərəfləridir. Bundan sonrakı addımlar isə praktiki hissələrdir. İlk 4 addımı bitirdikdən sonra 5-ci addım debit və kreditin nə olduğunu və necə tətbiq edildiyini bilməkdir. Biz debit və kredit vasitəsilə şirkətdə baş verən bütün əməliyyatların **müxabirləşmələrini (double-entries)** əks etdirəcəyik.

**Addım 6:** Növbəti addımımız isə **əməliyyat jurnalında (operating journal)** bütün baş verən əməliyyatların debit və kredit vasitəsilə müxabirləşmələrini etməkdir. Mühasibin etdiyi hər bir müxabirləşmənin arxasında mütləq sənəd əsası olmalıdır. Məsələn, mal alışının müxabirləşməsini edəcəksinizsə həmin malla bağlı ən azından müqavilə (contract), elektron qaimə (e-goods dispatched note), təhvil-təslim aktı (handover act) və invoys (invoice) mövcud olmalıdır.

**Addım 7:** Yuxarıdakı addımı bitirdikdən sonra əməliyyat jurnalında yazılan müxabirləşmələri qruplaşdıraraq **baş kitab (general ledger)** hazırlanmalıdır.

**Addım 8:** Baş kitabı hazırladıqdan sonra həmin baş kitab əsasında **sınaq balansını (trial balance)** hazırlamaq lazımdır. Sınaq balansına bəzən **dövriyyə qalıq cədvəli (working trial balance)** də deyilir. Sınaq balansı çox önəmlidir və şirkətə kənar audit gəldiyi zaman ilk olaraq istədiyi məlumat sınaq balansıdır.

**Addım 9:** Sınaq balansını bitirdikdən sonra ən son addım 4 əsas maliyyə hesabatını və izahlı qeydləri hazırlamaqdır. Bununla da yolun sonuna gəlmiş olursunuz. Burada mühasibatlığın işi tamamlanır və maliyyə işləri başlanılır.

Yuxarıda göstərdiyimiz 9 addımı kitab boyunca praktiki nümunələrlə izah edəcəyik. Yolun başlanğıcından yolun sonuna daha asan gəlmək üçün FinTalks "IFRS Gözlüyümüzü" taxaq və bu 9 addımı həmişə yadımızda saxlayaq.

## Maliyyə hesabatlarına ümumi baxış

Maliyyə Hesabatlarının Hazırlanmasının Konseptual Çərçivə Sənədinin nə olduğunu izah etməzdən öncə hesab edirik ki, Maliyyə Hesabatlarının növləri və həmin hesabatların hazırlanmasını tənzimləyən IFRS – International Financial Reporting Standards ilə bağlı qısa giriş etmək daha faydalı olardı. IFRS termini Azərbaycan dilində Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS) olaraq tərcümə edilir.

Biz bilirik ki, 4 əsas maliyyə hesabatı və həmin hesabatların izahlı qeydlər hissəsi mövcuddur. Bu hesabatlar haqqında sonrakı dərslərdə daha detallı məlumat verəcəyimiz üçün indi sadəcə, onların adlarını qeyd etməklə kifayətlənəcəyik. Maliyyə hesabatlarının aşağıdakı növləri var:

1. Maliyyə əziyyəti Haqqında Hesabat və ya Balans Hesabatı (Statement of Financial Position or Balance Sheet)
2. Mənfəət və ya Zərər Haqqında Hesabat və Digər Məcmu Gəlir Hesabatı (Statement of Profit or Loss and Other Comprehensive Income)
3. Pul Vəsaitinin Hərəkəti Hesabatı (Statement of Cash Flow)
4. Kapitalda Dəyişiklik Haqqında Hesabat (Statement of Changes in Equity)
5. İzahlı Qeydlər (Explanatory Notes)

Yuxarıda adlarını çəkdiyimiz hesabatların necə hazırlanmasını bilmək üçün MHBS-dən istifadə edirik. Həmin standartların hamısı 4 hesabatın və izahlı qeydlərin necə hazırlanmasında bələdçi rolu oynayır.

IFRS adını eşitdiyimiz zaman heç şübhəmiz yoxdur ki, bununla əlaqəli MUBSŞ – Mühasibat Uçotu üzrə Beynəlxalq Standartlar Şurası (IASB – International Accounting Standards Board) və MUBS - Mühasibat Uçotu üzrə Beynəlxalq Standartlar (IAS – International Accounting Standards) kimi terminlərlə də rastlaşacaqsınız. İlkin olaraq MHBS-nin, MUBS-un və MUBSŞ-un mahiyyətini izah edək ki, gələcək mövzularımız daha anlaşılan olsun.

## MUBSŞ-un rolu, funksiyaları və MUBSŞ-a tabe olan təşkilatlar

Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (MUBSŞ) Londonda, Böyük Britaniyada yerləşir və ən önəmli işi IFRS-ləri yaratmaqdır. Bu təşkilatın yaranma tarixi 1 aprel 2001-ci ildir. Ümumiyyətlə, 1973-2001 və 2001-ci ildən bu günə qədər olan iki tarix intervalı IFRS ilə bağlı önəmli hesab edilir:

- 1973-cü ildə ilk dəfə mühasibat uçotunun beynəlxalq standartlarını yaradan təşkilatın əsası qoyulmuşdur. Bu təşkilat MUBSK – Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi (IASC – International Accounting Standards Committee) olaraq adlanırdı. 2001-ci ilə qədər təşkilatın adı MUBSK olaraq qalmışdır və 2001-ci ilin aprelindən etibarən təşkilatın adı dəyişdirilərək MUBSŞ (IASB) adlanmağa başladı.
- 1973-cü ildən 2001-ci ilə qədər bütün beynəlxalq mühasibat uçotu standartları təşkilatın adına uyğun olaraq IAS – International Accounting Standards adı altında buraxılırdı. 2001-ci ildən sonra bütün standartlar IFRS adlanmağa başladı.

Bu tarixləri ona görə vurğuladıq ki, gələcək mövzuların izahında bu termin fərqlərini daha aydın başa düşə bilək. Qeyd elədik ki, IASB təşkilatı IFRS-lərin yaradılması işlərini həyata keçirir. Təbii ki, bu işləri IASB özü tək yerinə yetirmir və bu təşkilata yardımçı olan iki təşkilat da var.

1. **IFRS Məsləhət Şurası – IFRS Advisory Council** – bu IASB qurumuna tabe olan və adından da göründüyü kimi, standartların yaradılmasında IASB-yə məsləhət verən bir təşkilatdır. Bunun üçün IFRS Məsləhət Şurası dünyanın müxtəlif ölkələrində olan mühasibatlıq və maliyyə proseslərini yaxından incələyir və müşahidələri əsasında IASB-yə maliyyə hesabatların beynəlxalq standartlarını yaratmaqla bağlı müəyyən məsləhətlər verir.

2. **IFRS Şərhlər Komitəsi – IFRS Interpretations Committee (IFRIC)** – bu təşkilat da IASB-yə tabedir. IFRS Şərhlər Şurasının iki əsas funksiyası vardır və bu funksiyalar aşağıdakılardır: